# Fazil
# SƏNAN - 70



Hörmətli Fazil müəllim!

Sizi - istedadlı yazıçı-publisisti 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1974-cü ildə Gəncə Dövlət Universitetinin filologiya fakültəsini bitirib, müəllim kimi əmək fəaliyyətinə başlamısınız. Qabaqcıl müəllim kimi bir neçə dəfə respublika müəllimlər müsabiqəsinin qalibi olmusunuz. Elmi-pedaqoji və metodiki yazılarla dövri mətbuatda çıxış etmisiniz. "Baş müəllim", "Metodist müəllim", "Ali dərəcəli müəllim", "Xalq təhsili əlaçısı", döş nişanı, bir çox fəxri fərmanlarla təltif edilmiş və müəllimlərin VII-XII qurultaylarının iştirakçısı olmusunuz. Orta məktəb illərindən ədəbiyyata maraq göstərmisiniz. "Çağırılmamış qonaqlar" adlı ilk hekayəniz 1986-cı ildə Ağcabədi rayonunda çıxan "Sürət" qəzetində çap edilib. Sonralar müxtəlif məzmunlu yazılarla "Azərbaycan müəllimi", "Sovet kəndi", "Azərbaycan gəncləri", "Azərbaycan təbiəti", "Gəncənin səsi", "Yeni sözçü", "Ədalət", "525-ci qəzet", "Ədəbiyyat qəzeti", "İnsan və zaman" və s. mətbuat orqanlarında və almanaxlarda çıxış etmisiniz. "Teleqram", "Yaşamağa dəyər", "Kədərindən boylanan şair", "Məhəbbət nəğməsi", "Zamanın çevrəsində", "Dünya, səndə nəyim qaldı", "Dön geriyə bax", "Düşüncələrim və mülahizələrim", "Əbədiləşən nəğmələr", "Ölümə ərizə", "Gözlə, qayıdacağam", "Bu mənəm - İmam Cəmilli", "Nifrətim - göz yaşlarım", "Məndən deməkdir", "Yaxın və uzaq adamlar" adlı kitablarınız çap olunub.

Ədəbi uğurlarınız "Qızıl qələm", H.Zərdabi diplomları ilə dəyərləndirilib.

**Hörmətli Fazil müəllim!**

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

**ədəbiyyat qəzeti.- 29 yanvar.- 2022- ci il.- S.30.**